**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**İQTİSADİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**TELLİ XƏLƏF QIZI HACIYEVA**

# AZƏRBAYCANDA BIZNES INKUBATORLARIN FORMALAŞMASI VƏ INKIŞAFI PROBLEMLƏRI

**İxtisas:** 5312.01 –Sahə iqtisadiyyatı

Iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

## A VT O R E F E RATI

*Bakı – 2013*

Dissertasiya işi Azərbaycan Dövlət Iqtisad Universitetində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Əməkdar elm xadimi,
iqtisad elmləri doktoru
prof. A**.B. Abbasov**

**Rəsmi opponentlər:** i.e.d.prof. **H.B.Allahverdiyev**

i.f.d.K**.N.Abdullayev**

**Aparıcı təşkilat:** **İqtisadi İnkişaf Nazirliyi İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu**

Müdafiə "_31__"_05_ 2013-cü il saat___da AMEA Iqtisadiyyat Institutunda fəaliyyət göstərən FD.01.181. Dissertasiya Şurasının iclasında olacaqdır.

Ünvan: Az. 1143, Bakı şəhəri, H.Cavid prospekti 31, II mərtəbə, Azərbaycan Milli Elmlər Akademiyasının Iqtisadiyyat Institutu.

Dissertasiya işi ilə AMEA-nın Mərkəzi kitabxanasında tanış olmaq olar.

Avtoreferat"___"____________ 2013-cü ildə göndərilmişdir.

FD.01.181. Dissertasiya
Şurasının Elmi Katibi,

Iqtisad üzrə fəlsəfə doktoru, dosent G.S. Hacıyeva

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı .** Müasir biznes sahəsində elmi və texniki nailiyyətlərin düzgün tətbiqini nəzərdə tutan innovasiya sistemi sürətlə inkişaf edir . Bu inkişafda biznes inkubatorlar da mühüm rol oynayırlar. Belə ki ,biznes-inkubatorların əsas vəzifəsi maraqlı biznes ideyanı aşkara çıxarmaq və onun biznes layihəsinə çevrilməsinə kömək etmək, məhsul istehsalına yardım göstərmək və bazara çıxışı təmin etməkdən ibarətdir. Bütün bu vəzifələrın yerinə yetirilməsinə, xüsusilə məhsulun bazara çıxışına yardım göstərmək kifayət qədər mürəkkəb məsələdir. Buna nəinki ölkə daxilində, eləcə də beynəlxalq aləmdə düzgün biznes siyasəti aparmaqla, biznes infrastrukturunu inkişaf etdirməklə nail olmaq mümkündür. Bu funksiya getdikcə daha vacib əhəmiyyət kəsb edir, çünki vaxt keçdikcə yeni müəssisənin bazara çıxışı tədricən artmaqda olan rəqabət üzündən mürəkkəbləşir. Biznesin inkubasiyası uzunmüddətli dövrə hesablanmış sahibkarlığa köməyin infrastruktur mexanizmlərindən biridir. Biznes-inkubatorlar bir qayda olaraq, innovasiya tipli kiçik və orta müəssisənin yaradılmasına kömək edirlər.

Lakin biznes inkubatorların yaradılmasının özü də mürəkkəb və çox şaxəli problemdır. Belə problemlər həm nəzəri-metodoloji sahədə, həm də təcrübədə biznes-inkubasiya konsepsiyasının reallaşdırılması zamanı mövcuddur. Bunları aradan qaldırmaq üçün ilk növbədə biznes-inkubatorların qurulmasının nəzəri-metodiki cəhətləri, onların təşkilati formalarının düzgün müəyyən edilməsi, biznes-inkubatorların yaradılmasında beynəlxalq təcrübəni öyrənib ümumiləşdirməklə Azərbaycanda onun tətbiqi variantlarlarının tapılması, biznes-inkubatorların formalaşması problemlərini aşkara çıxarıb, onların aradan qaldırılması istiqamətində təklif və tövsiyyələrin verilməsi həyata keçirilməlidir.

Azərbaycan Respublikası Prezidentinin 4 may 2009-cu ildə təsdiq etdiyi "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyada" qeyd edilmişdir ki, qloballaşma dövründə İnformasiya Cəmiyyətinin tələblərinə uyğun olaraq biliklərə əsaslanan iqtisadiyyatın formalaşdırılması çox zəruri məsələdir. Təsadüfi deyildir ki, Milli Strategiyada elmi-texniki infrastrukturu modernləşdirmək, elmin, təhsilin və istehsalın inteqrasiyasını təmin etmək, innovasiya siyasətinin səmərəsini artırmaq və bu kimi tapşırıqlar verilmişdir. Bunlarla yanaşı elmin inkişafı üzrə Milli Strategiyada innovasiya fəaliyyəti infrastruk-

turunun inkişaf etdirilməsi, o cümlədən texnoparklar, texnoloji mərkəzlər, biznes inkubatorları şəbəkəsinin genişləndirilməsi də bir vəzifə kimi qarşıya qoyulmuşdur. Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramının icrasına dair tədbirlər planında isə 2009-2011-ci illərdə elmi-tədqiqat işlərinin istehsalata tətbiqini sürətləndirmək üçün texnoparkların yaradılmasına dair təkliflərin və müvafiq normativ-hüquqi sənədlərin işlənilməsi Milli Elmlər Akademiyasına və digər əlaqədar nazirliklərə tapşırılmışdır.

"Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət proqramının 6.1.6 bəndində biznes –inkubatorların təşkili və 6.4.2 bəndində isə gənclərin məşğulluğu və sahibkarlıq fəaliyyəti sahəsində inkişaf etmiş ölkələrin təcrübəsinin öyrənilməsi və tətbiqi ilə bağlı tədbirlərin həyata keçirilməsi tövsiyyə olunmuşdur.

Məlum olduğu kimi, Azərbaycan Respublikası prezidenti ölkədə qəbul olunmuş bir sıra strateji proqramların və layihələrin həyata keçirilməsində, eləcə də sosial-iqtisadi inkişafın yeni mərhələsində prioritet vəzifələrin yerinə yetirilməsində xüsusi iqtisadi zonaların (texnoparkların, biznes inkubatorların) mühüm rol oynaya biləcəyini qeyd edərək, hələ 2007-ci il martın 6-da "Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması haqqında" Fərman imzalamışdır. Bu istiqamətdə qəbul edilmiş "Xüsusi iqtisadi zonalar haqqında" qanun Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların (texnoparkların,biznes inkubatorların) yaradılması və idarə edilməsi ilə bağlı hüquqi, iqtisadi münasibətləri tənzimləyəcək, həmin zonalarda sahibkarlıq fəaliyyətinin təşkili qaydalarını müəyyənləşdirəcəkdir. Qanunda müvafiq xüsusi iqtisadi zonalarda fəaliyyət göstərən müəssisələrin sıfır dərəcəsi üzrə ƏDV və 2% dərəcə ilə dövriyyədən vergi ödəyəcəyi nəzərdə tutulur. Təhlil göstərir ki, xüsusi iqtisadi zonaların (texnoparkların ,biznes inkubatorların) yaradılması Azərbaycan iqtisadiyyatının daha sürətlə inkişaf etməsinə təkan verəcək və xarici ticarət əlaqələri xeyli genişlənəcəkdir

Bu günə qədər ölkəmizdə biznes inkubatorlar kütləvi şəkildə yaradılmamışdır. Bu biznes inkubatorlar haqqında informasiyanın azlığı, ölkəmizdə kiçik biznesin infrastrukturunun inkişafına dair konkret proqramın olmaması,biznes inkubatorların yaradılması sahəsində təcrübənin azlığı və s. səbəblərlə əlaqədardır

Ölkəmizdə qeyri-neft sektorunun inkişafında bir boşluq mövcuddur ki, bunun da doldurulmasının ən optimal variantı kiçik və orta

biznesin inkişafına yönəldilmiş konkret və kompleks tədbirlər proqramının hazırlanması və reallaşdırılmasıdır. Mövcud vəziyyət kiçik və orta sahibkarlığın, o cümlədən ölkəmizdə sonsuz inkişaf mənbəyinə malik olan turizm sektorunun, ölkəmizə milyonlarla vəsait qazandıra biləcək elmi-tədqiqat işlərinin reallaşması, ölkəmizdə rəqabət qabiliyyətli sahibkarlıq mühitinin formalaşması – istehsal sahibkarlığının inkişaf etdirilməsi üçün, biznes inkubatorların yaradılması sahəsində geniş elmi-tədqiqat işlərinin aparılmasını tələb edir.

**Problemin öyrənilmə səviyyəsi**. Dissertasiyada işlənib hazırlanan konsepsiyanın əsasında bütövlükdə Azərbaycanın, eləcə də onun ayrı-ayrı regionlarında fəaliyyət göstərən təsərrüfat subyektləri sisteminin mühüm elementi kimi biznes-inkubatorlar haqqında biliklər durur. Belə yanaşma onu nəzərdə tutur ki, biznes-inkubatorun uğurlu fəaliyyəti xeyli dərəcədə onun mövcud iqtisadi mühitə uyğunluğu və biznes inkubatorun iqtisadi inkişafa cəld reaksiya vermək mümkünlüyü ilə şərtlənir. Ölkənin təsərrüfat subyektlərinin iqtisadi inkişaf strategiyasının reallaşdırılmasında kiçik və orta sahibkarlığın rolu və yeri , adekvat infrastrukturun inkişaf məsələləri Azərbaycanın iqtisadçı alimlər A.A.Nadirovun, Ə.X. Nuriyevin, H.B. Allahverdiyevin, Ə.Q. Əlirzayevin , İ.H.Alıyevin, A.B.Abbasovun və başqalarının əsərlərində araşdırılmışdır. Xarici alimlərdən T.V. Lomonosov, V.Ş. Kaqanov, A.V. Fesyun, L.F. Yefteyeva, N.A. Dumnova, O.B. Берр, A.B Fesyuн, V.N. Kolçixina V.O.Bulqakov və başqaları biznes-inkubatorlarin inkişafına dair kompleks tədqiqatlar aparmışlar.

Göründüyü kimi, ayrı-ayrı yerli və xarici alimlər biznesin inkişafının müxtəlif məsələlərinə toxunsalar da, bütövlükdə problemin həllinə ayrıca tədqiqat işində rast gəlinməmişdir. Bu isə öz növbəsində tədqiqatın zəruriliyini əsaslandırmış, onun məqsəd və vəzifələrini müəyyən etmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın başlıca məqsədi sahibkarlığa köməyin səmərəli infrastruktur mexanizmi olan biznes inkubatorların formalaşmasının nəzəri metodoloji əsaslarını ümumiləşdirmək, mövcud vəziyyəti təhlil etmək və Azərbaycan Respublikasında biznes inkubatorların yaradılması və inkişafının prioritet istiqamətlərinin müəyyənləşdirilməsinə dair elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyyələr işləyib hazırlamaqdan ibarətdir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmiş və yerinə yetirilmişdir:

- biznes-inkubatorların Azərbaycanda təşkilinin və inkişafının metodoloji əsaslarını müəyyənləşdirmək;
- müasir şəraitdə kiçik biznesin rolunu və yerini müəyyənləşdirmək;
- biznes-inkubatorların yaradılmasında beynəlxalq təcrübəni öyrənib araşdırmaqla onun Azərbaycanda tətbiqi variantlarını müəyyənləşdirmək;
- bələdiyyələrin inkişafında biznes-inkubatorların yerini müəyyənləşdirmək;
- biznes-inkubasiya prosesinin təşkilati metodiki mexanizmini əsaslandırmaq və institusional inkişaf xüsusiyyətlərini müəyyənləşdirmək;
- sahibkarlıq mühitində biznes-inkubasiya prosesinin formalaşması üzrə təklif və tövsiyələr işləyib hazırlamaq.

**Tədqiqatın obyektini** kiçik sahibkarlığa köməyin əsas infrastruktur elementi olan biznes-inkubatorlar təşkil edir.

**Tədqiqatın predmetini** biznes-inkubasiya prosesinin formalaşması və inkişafı prosesində müxtəlif təsərrüfat sübyektləri arasında münasibətlərin , meyllərin və qanunauyğunluqların öyrənilməsi təşkil edir.

**Tədqiqatın nəzəri - metodoloji əsaslarını** biznes-inkubatorun inkişafına həsr olunmuş Azərbaycanın və xarici ölkələrin iqtisadçı alimlərinin əsərləri, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları , biznes inkubatorların inkişafı ilə bağlı qəbul edilən normativ-hüquqi aktlar təşkil edir.

Dissertasiya işində sintez, məntiqi təhlil və dialektik inkişaf, tarixi yanaşma, müqayisəli təhlil, statistik-iqtisadi, məqsədli proqram və proqnoz metodlarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası**. Tədqiqat prosesində Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, İqtisadi İnkişaf Nazirliyinin, beynəlxalq təşkilatların, müvafiq elmi-tədqiqat institutlarının məlumatlarından istifadə edilmişdir.

**Tədqiqat işinin elmi yeniliyi aşağıdakılardan ibarətdir**:

- Azərbaycanda biznes-inkubatorların təşkili və inkişafının nəzəri əsasları müəyyənləşdirilmişdir;
- sahibkarlığa köməyin infrastruktur mexanizmi kimi biznes-inkubatorların rolu əsaslandırılmışdır;

- biznes-inkubatorların yaradılmasının dünya təcrübəsi ümumiləşdirilməklə qiymətləndirilmiş və Azərbaycanda biznes-inkubatorların işinin optimal təşkili variantları müəyyən edilmişdir;
- Azərbaycanda biznes-inkubatorların formalaşması problemləri öyrənilərək təhlil edilmiş və onların aradan qaldırılması ilə bağlı tədbirlər sistemi işlənib hazırlanmışdır;
- Azərbaycanda biznes-inkubasiya prosesinin təşkilati mexanizmi və institusional inkişaf istiqamətləri müəyyənləşdirilmişdir ;
- Azərbaycanda biznes-inkubatorlar sisteminin formalaşması və inkişafı proqramı işlənib hazırlanmışdır.
- sahibkarlıq sferasında biznes-inkubasiya prosesinin formalaşması üzrə tövsiyələr işlənib hazırlanmışdır.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Dissertasiyada konkretləşdirilən nəzəri-təcrübəvi müddəalar, təkliflər və tövsiyələr Azərbaycan Respublikasının şəhər və regionlarında biznes-inkubatorların yaradılması və inkişafı üçün istifadə edilə bilər. Dissertasiya işində xarici təcrübədən nəticə cıxararaq ölkəmiz ücün tipik modellər müəyyənləşdirilmış, müxtəlif istiqamətli biznes inkubatorların təşkilində riskləri minimuma endirəcək bir sistem hazırlanmışdır, eyni zamanda tədqiqatın əsas nəticələri təhsil müəssisələrində , elmi tədqiqat işlərində istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası və nəticələrinin tətbiqi.** Dissertasiya işının ayrı-ayrı müddəaları və nəticələri 2008-2012-cu illərdə Azərbaycan Respublikasında keçirilmiş beynəlxalq və respublika səviyyəli elmi-praktiki konfranslarda müzakirə edilmişdir.

Dissertasiya işının əsas nəticələri Azərbaycan Respublikasının Rabitə və İnformaiya texnologiyaları Nazirliyi tərəfindən həyata keçirilən “Regional İnnovasiya Zonası “ layihəsində istifadə üçün qəbul edilmişdir. (AR-icş-2969 saylı məktub). Dissertasiya işinin mövzusu üzrə 9 elmi məqalə və tezis dərc olunmuşdur.

**Dissertasiya işinin quruluşu və həcmi**. Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarət olmaqla, 13 cədvəl, 7 sxem və 3 şəkli özündə əks etdirmişdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılır, problemin öyrənilmə səviyyəsi, tədqiqatın məqsədi, vəzifələri, obyekt və predmeti, metodoloji əsasları, informasiya bazası, elmi yeniliyi, təcrübi əhəmiyyəti və aprobasiyası şərh edilmişdir.

Dissertasiya işinin “**Biznes inkubatorların formalaşmasının nəzəri-metodoloji aspektləri” adlanan birinci** fəslində biznes inkubatorların formalaşmasının nəzəri- metodoloji əsasları, biznes inkubatorların təşkilati formaları və təsnifatı, bazar iqtisadiyyatlı ölkələrdə biznes inkubatorların yaradılması və inkişafı sahəsində təcrübə öyrənilərək ümumiləşdirilmişdir.

Biznes inkubatorlar sahibkarlıq subyektlərinin inteqrasiyasını həyata keçirən, onların səmərəli fəaliyyətini tətbiq etmək məqsədilə çeşidli xidmətlər göstərən təşkilati modeldir. Sahibkarlığa köməyin infrastruktur mexanizmi kimi biznes-inkubatorlar əhalinin məşğulluq və həyat səviyyəsinin, regionların iqtisadi akitvliyinin yüksəldiməsinə, kiçik müəssisələrin sayının və onların rəqabət qabiliyyətinin artırılmasına, bütövlükdə sahibkarlığın innovasiya yönümünün təmin edilməsinə, müəssisələr arasında kooperasiya əlaqələrinin yaranması və möhkəmlənməsinə xidmət edir.

Biznes-inkubatorların mahiyyəti kiçik biznesi dəstəkləmək və onlar üçün müvafiq şərait yaratmaqdan ibarətdir. Bunu təmin etmək üçün də yaranmaqda olan kiçik biznes subyektlərini bütünlüklə və ya qismən öz qəyyumluğu altında saxlayır, xarici mühütün mənfi təsirindən qoruyur və yeni müəssisənin qarşısına çıxan problemləri kompleks halda həll edir .Biznes-inkubatorlar kiçik biznesi inkişaf etdirmək sahəsində infrastrukturun bir elementi kimi cıxış edir, həm müstəqil qurum kimi, həm də kiçik biznesin bir hissəsi kimi fəaliyyət göstərirlər.

İşdə biznes inkubatorlar vasitəsiə həll olunan problemlər aşağıdakı kimi qruplaşdırılmışdır: regionların iqtisadi cəhətdən sağlamlaşdırılması, daxili bazarın inkişafı; kiçik müəssisələrin sayının artırılması, onların istehsal qabiliyyətinin yüksəldilməsi, biznesdə innovasiyanın aktivliyinin artırılması ,yeni texnologiyaların və nau-hauların tətbiqi; işləyənlərin sayının artırılmasi və həyat səviyyəsinin yüksəldilməsı; universitetlərdə, elmi-tədqiqat insitutlarında, labaratoriyalarda hazırlanmış innovasiyaların,yeni texnika və texnologiyaların mənfəət mənbəyinə cevrilməsi; milli azlıqların, gənclərin, aşağı gəlirli ailələrin həyata kecirmək istədikləri sahibkarlıq formalarının müdafiəsi.

Bu və ya digər xarici amillər yeni müəssisənin fəaliyyətinə mənfi təsir edir ki, bu da maliyyə və vaxt itkisinə səbəb olur. Bu sahədə hazırlanmış biznes- inkubator layihələri sahibkarların bütün güclərini biznesin inkişafına yönəltmələrinə istiqamətlənmişdir. Biznes inkubatorlarda fəaliyyət proqramı ilə işləmək əlverişli pzixoloji mühüt yaradır ki, bu

da insanların yaradıcılıq qabiliyyətini yüksəldir, ümidsizliyi aradan qaldırır, əməkdaşlıq münasibətlərini qaydaya salır.

Fəaliyyətə başlayan hər bir kiçik biznes subyekti nəinki formalaşma hətta yetkinlik mərhələsində də biznes–inkubatorlardan mütəxəssis,ekspert dəstəyi alır.

Biznes–inkubatorlar kiçik biznesin hər bir inkişaf mərhələsində onlara yardım gəstərirlər ki, bu prosesi aşağıdakı kimi təsnifləşdırmək olar:

- İdeyanın əmələ gəlməsi və təsdiqlənməsi zamanı biznes –inkubatorlar ilkin baza məlumatlarının yığılmasinı; təcrübi əsaslarla sahibkarlıq fəaliyyətinin öyrədilməsini; məsləhət xidmətini və s. həyata keçirirlər.
- Müəssisənin əmələ gəlməsi, nümünənin hazırlanması zamanı bazar haqqında məlumatın toplanması; biznes planların hazırlanmasında köməklik və ekspert rəyi; ilkin nümunələrin müasir texnologiyalarla təchiz olunmuş labaratoriyalarda sınaqdan kecirilməsi və s. xidməti həyata kecirirlər.
- Məhsul istehsalı prosesinin başlanması, ilkin hazır məhsulun istehlakcılara təqdim olunması zamanı ilkin maliyyələşdirmə və maliyyə mənbələrinin tapılmasında; icarə, lizinq və s. formada əsas fondlarla təmin olunmada; biznes, hüquq, mühasibat və s. sahələrdə mütəxəssislər tərəfindən məsləhətlərin verilməsi; qəyyumluq xidməti , menecment və s. bu kimi yardımların göstərilməsi.
- Kiçik biznesin istehsalın inkişafı, məhsulların ceşidinin artırılması mərhələsində isə biznes-inkubatorlar onlara əsas fondların genişləndirilməsi və maliyyələşmənin artırılmasında; müqavilə münasibətlərinin təşkili və etibarlılığının təmin olunmasında; marketinq, reklam və s. xidmətlərin həyata kecirilməsində; kadrların secilməsi və öyrədilməsində ; kiçik məssisəyə bütün növ qəyyumluq xidmətləri və s sahələrdə köməklik gəstərirlər.
- Yetkinlik, bazarda müəssisənin yerinin müəyyənləşdirilməsi zamanı biznes-inkubatorlar tərəfindən daha geniş ərazilərin təklif olunmasi və ya ərazilərin genişləndirilməsinə yardım göstərilməsi; maliyyələşmənin genişləndirilməsi; böyük sifarişlərin alınmasında vasitəçilik xidmətlərinin göstərilməsi; konsaltinq,informasiya, audit, marketinq, reklam sahəsində xidmətlərin göstərilməsi; mütəxəssis hazırlığının genişləndirilməsi, işci heyyətinin öyrədilməsi və s. xıdmət təklif olunur.

Dünya təcrübəsi göstərir ki, biznes-inkubatorların kiçik müəssisələri inkişaf etdirməsi nəticəsində böyük bir regıonda iqtisadi yüksəlişə nail ola bilərlər. Biznes-inkubatorlar vasitəsilə regionların inkişafı dörd istiqamətdə həyata kecirilir.

- yeni-yeni müəssisələrin təşkili;
- fəaliyyət göstərən müəssisənin digər regionlara cəlb edilməsi;
- iqtisadi cəhətdən cətin vəziyyətdə olan regionların dirçəldilməsi;
- fəaliyətdə olan müəssisələrin genişləndirilməsi

İşdə inkişaf etmiş ölkələrdə uzun müddət xidmət göstərən biznes-inkubatorların artıq qədəm qoyduqları yeni mərhələlər qiymətləndirilmiş ; biznes inkubatorlarda fəaliyyət göstərən müəssisələrin tipləri açıqlanmış; biznes inkubatorların təşkili problemləri öz əksini tapmışdır.

İqtisadi ədəbiyyatlarda biznes-inkubatorların təsnifatını aşağıdakı meyarlar üzrə aparırlar:

- təşkilatçılar və ya sponsorlar baxımından;
- peşəkarlıq baxımından;
- müstəqillik dərəcəsinə görə;
- müştəriyə xidmət formasına görə;
- demoqrafik prinsiplər üzrə.

Biznes inkubatorların yaranmasının əsas şərtlərinə gəldikdə isə, hər şeydən əvvəl biznes-inkubatorlar kiçik müəssisələrə çox böyük imtiyazlar təmin edirlər . Bunun üçün də biznes inkubatorlar təbii ki , resurslara malik olmalıdırlar. Dünya ölkələrində bu barədə mövcud olan təcrübəni ümumiləşdirməklə biznes-inkubatorların təşkil olunmasının əsas şərtlərini aşağıdakı kimi təsnifləşdirmək daha məqsədəuyğundur: ilkin kapital ; maddi-texniki baza; ixtisaslı mütəxəssislər. Bu və digər fikri əsaslandırmaq üçün işdə dünya ölkələrinin (18 ölkənin) təcrübəsi ümumiləşdirilmişdir.

Bir cox ölkələrdə biznes inkubatorlar kiçik biznesə dəstək infrastrukturu kimi fəaliyyət göstərsələr də, ayrı-ayrı ölkələrdə, məsələn Kanadada biotexnologiyaların innovasiya mərkəzi kimi, Fransada əyləncəni , təhsili, elmi-texniki inkişafı, yüksək texnologiyalı istehsalları və s. bir arada tutan elmi parklar kimi, İtaliyada ölkənin regionlarında yüksək texnologiyalı sənaye sahələri təşkil etmək üçün yaradılmışdır.

Dissertasiya işinin **" Biznes-inkubatorlar sahibkarlığa köməyin təşkilati idarə etmə mexanizmi kimi "** adlanan **ikinci fəslində** statistik məlumatların ümumiləşdirilməsi əsasında Azərbaycanda sahibkarlığın dövlət tənzimlənməsinin xüsusiyyətləri, biznes-inkuba-

torların əlverişli biznes mühitinin yaradılmasına təsiri, biznes inkubatorların bələdiyyələrə köməkliyi qiymətləndirilmişdır.

İşdə Azərbaycanın sənaye müəssisələrində innovasiyaya mane olan amillər təsnifatlandırılmış, 2007-2011-ci illərdə kiçik sahibkarlıq subyektlərinin sayı kiçik sahibkarlıq subyektlərinin əsas makroiqtsadi gostəriciləri, zərərlə işləmiş kiçik müəssisələrin sayı və s.haqqında məlumatlar verilmiş ,müqayisəli təhlil aparılmışdır.

Cədvəl 1

**Kiçik sahibkarlıq subyektlərinin əsas makro-iqtsadi gostəriciləri**

| | 2007 | 2008 | 2009 | 2010 | 2011 |
|---|---|---|---|---|---|
| Yaradılmış əlavə dəyər, milyon manat | 449,2 | 718,7 | 844,8 | 1 120,0 | 1 227,0 |
| Ümumi mənfəət, milyon manat | 41,7 | 51,9 | 65,8 | 78,3 | 85,3 |
| İşçilərin orta illik sayı, min nəfər | 92,1 | 103,2 | 105,9 | 93,2 | 90,2 |
| Orta aylıq nominal əmək haqqı, manat | 170,7 | 182,1 | 195,2 | 207,0 | 222,2 |
| Əsas kapitala investtisiyalar, milyon manat | 289,4 | 371,2 | 289,3 | 276,3 | 737,6 |
| Dövriyyə, milyon manat | 1 653,5 | 2 475,7 | 2 910,1 | 3 835,5 | 4 362,2 |

Mənbə:ARDSK-nın materialları əsasında tərtib edilmişdir

Araşdırılmışdır ki, 2007-2011 –ci illər ərzində kicik sahibkarlarlıq subyektlərinin sayı, 196972-dən 224830-ə çatmış, yəni 27858 ədəd artmış, onların mənfəəti azalmışdır. Belə ki, kiçik sahibkarlıq subyektlərinin sayı cəmi 11% artdığı halda onların zərərləri 43 % artmış , yəni 17 111,2 min manatdan 24 401,8 min manata catmışdır.

Təhlil göstərir ki, kiçik müəssisələrin mənfəəti umumilikdə 2007 –ci ildə olan 41661 min manatdan 85328 min manata catmış, yəni 104% artmışdır, lakin bu artım turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsində 30%, əhaliyə sosial xidmətin gostərilməsi sahəsində 43% olmuş, tikinti sahəsində isə əksinə azalma müşahidə olmuşdur

Ölkəmizdə ÜDM həcmi 2007 –ci ildə 28360,5 milyon manatdan 2011-ci ildə 51157,5 milyon manata çatmış ,yəni 1,8 dəfə artmışdır. Həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində 2011-ci ildə özəl sektorun Ümumi Daxili məhsuldakı payı 82,5 %-ə çatmışdır ki, bu da 2003-cü illə müqayisədə 11,7 % yüksəkdir. 2011-ci ildə məşğul əhali 4375,2 min nəfər olmuşdur ki, bunlardan 49 %-ni xüsusı sahibkarlıq subyektləri təşkil edir. Sənaye istehsalının 80,5 % özəl sahibkarlıq subyektləri tərəfindən təmin edilir, fiziki şəxslərin sayı 275 mini keçmişdir. Xüsusi sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisələrin sayı 1 yanvar 2011- ci il tarixinə 74310 olaraq qeydə alınmışdır ki, bunun da 73 faizini kiçik müəssisələr təşkil edir. Bununla yanaşı, 4693 xarici və 1712 birgə investisiyalı müəssisə qeydə alınmışdır.

Dünya ölkələrinin təçrübəsinin təhlili göstərir ki,biznes inkubasiyalaşma prosesi öz-özlüyündə kicik müəssisələrin yaradılması və iş rejiminə çıxması proseslərini 7-22 dəfə intensivləşdirir. Əgər kiçik biznesin ümumi inkişaf dinamikasını və biznes-inkubatorlarda olan dinamikasını müqayisə etsək görərik ki, ümumi qaydada yaradılan kicik biznesin ilk beş ildə 50%, ilk 10 ildə isə təqribən 80 %-i öz fəaliyyətini dayandırır. İnkubasiyalaşmış müəssisələrin isə 85-90 % öz fəliyyətlərini davam etdirirlər.

Qeyd olunmuşdur ki, kiçik innnovasiya sahibkarlığını inkişaf etdirmək üçün regionlarda mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixrac yönümlü məhsul istehsalının stimullaşdırılmasına, yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, məşğulluğun səviyyəsinin, xüsusilə gənclərin faydalı əməklə məşğulluğunun artırılmasına və ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsinə nail olmaq olar.

Yeni təsərrüfatçılıq şəraitində ölkəmizdə sahibkarlıq mühiti formalaşır. Bu dövrdə sahibkarlığın inkişafı ölkənin siyasi və sosial-iqtisadi sisteminin yenidən qurulmasının mühüm amili kimi çıxış edir. Sahibkarlıq fəaliyyəti üçün daha da əlverişli mühitin yaradılması məqsədilə əsaslı şəkildə islahatların aparılması da məhz ölkədə həyata keçirilən iqtisadi inkişaf strategiyasının tələblərindən irəli gəlir.

Ölkəmizdə kiçik biznes fəaliyyətində maneələrdən biri kiçik biznesin infrastrukturunun ya heç olmaması, ya da orada çatışmazlıqların olmasıdır. Rəqabət aparma və hansısa bir nəticəyə catmaq ücün kicik

sahibkarın məsləhətləşmək üçün ixtisaslı hüquqşünası, satış imkanlarını təhlil etmək ücün marketoloqu, əmtəələrini reallaşdıracaq bir şəbəkəsi olmalıdır ki , bu zaman zərərlə işləyən müəssisələrin sayında artma deyil, azalma müşahidə olunardı.

Inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, hətta belə infrastruktur olsa da, yenə də kiçik müəssisələrin dövlətin köməyinə, regional və yerli hakimiyyət orqanlarının dəstəyi olmadan ən səmərəli infrastrukturla belə kiçik müəssisələrin yüksək qazanc əldə etməsi mümkün deyildir.

Cədvəl 2

**Zərərlə işləmiş kiçik müəssisələrin sayı**
(iqtisadi fəaliyyət növləri üzrə)

| | 2007 | 2008 | 2009 | 2010 | 2011 |
|---|---|---|---|---|---|
| İqtisadiyyatın bütün sahələri üzrə - cəmi | 1 525 | 1 688 | 1 807 | 1 723 | 1 878 |
| o cümlədən: | | | | | |
| kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | - | - | - | - | - |
| sənaye | 459 | 427 | 421 | 418 | 434 |
| tikinti | 104 | 102 | 97 | 90 | 109 |
| ticarət; nəqliyyat vasitələrinin təmiri | 498 | 605 | 709 | 657 | 614 |
| nəqliyyat və anbar təsərrüfatı*) | 67 | 125 | 127 | 110 | 184 |
| turistlərin yerləşdirilməsi və ictimai iaşə | 43 | 65 | 61 | 55 | 62 |
| informasiya və rabitə | - | - | - | 15 | 23 |
| daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 118 | 127 | 138 | 132 | 175 |
| təhsil, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, digər sahələr | 236 | 237 | 254 | 246 | 277 |

Mənbə: ARDSK-nin materialları əsasında tərtib edilmişdir.

Bu problemlərə nəzər saldıqda görürük ki, iki əsas element-ideya və yaradıcı insan burada mühüm əhəmiyyət kəsb edir. İdeya dedikdə işgüzar ideyalar başa düşülür ki, bunlara da yeni məhsulların yaradılması;keyfiyyətli xidmətlərin təklif edilməsi, bir sözlə tələbə fəal təsir edəcək

və bütün bunları reallaşdıracaq ideyalar toplusu başa düşülür ki, bu da infrastrukturun innovasiya mexanizmi kimi qiymətləndirilməlidir.

İkinci mühüm element isə şəxs və ya şəxslər qrupudur. Bunları bir məqsəd və ya məqsədlər qrupu birləşdirir. Bu iki elementdən başqa bəzi hallarda ilkin kapital da vacib amil kimi qeyd olunur. Lakin təcrübə göstərir ki, özünü doğrultmuş ideyalar və şəxslər qrupu mövcud olduqda ilkin kapitalın tapılması mümkün olur.

Yuxarıda qeyd olunanları ümumıləşdirərək kiçik biznesin infrastrukturunu təşkil edən qurumlıarı aşağıdaki kimi təsnifləşdirmək olar:

*I . Tədris, konsaltinq, informasiya:* Biznes məktəblər; Elm-tədris mərkəzləri; Biznesə yardım agentliyi; Konsaltinq firmaları; Analitik informasiya mərkəzləri.

*II.Kompleks yardım.*Biznes inkubatorlar; Biznes mərkəzlər; Texnoparklar, İnnovasiya-texnoloji mərkəzləri.

*III.Maliyyə-kredit investisiya yardımı.* Kiçik sahibkarlığa yardım fondları; Banklar;Lizinq kompaniyaları; İnvestisiya kompaniyaları; Vençur kompaniyalar.

*IV.İctimai təşkilatlar.* Sənaye-ticarət palatası; Sahibkarlar assosasiyası; Həmkarlar ittifaqları.

İşdə qeyd edilir ki, bələdiyyələrin inkişafı və onlarda şəffaflığın artırılması, yerli bazarlaın inkişafı , regionlarda işsizliyin azaldılması dövlət plan və proqramlarından irəli gələn tapşırıq və tövsiyyələrin həyata keçirilməsi üçün bu biznes-inkubatorların regionlarda, o cümlədən bələdiyyələrin tərkibində təşkili məqsədəuyğundur. Ümumiyyətlə bələdiyyələrin imicinin artırılması nöqteyi-nəzərindən də biznes-inkubatorlar mühüm rol oynayırlar. Bələdiyyənin biznes inkubatorlarda iştirakı hakimiyyətin biznesə aktiv yardımına, xoş arzulu münasibətlərinə və praktiki olaraq sahibkarlığa köməyə səbəb olardı . Göründüyü kimi, bələdiyyələr kiçik sahibkarlığı inkişaf etdirmək məqsədilə biznes-inkubatorların təşkilində və onlara köməklik göstərilməsində daim maraqlı olmalıdırlar.

Kiçik biznesin infrastruktur elementlərinin bir mərkəzdə cəmlənməsi və işlək mexanizminin formalaşması üçün aşağıdakı sxemi təklif edirik (Sxem 1)




Sxem 1 .Kiçik sahibkarlığa kömək infrastrukturu
Qeyd: Sxem müəllif tərəfindən tərtib olunmuşdur

İşidə bələdiyyə orqanları tərəfindən biznes-inkubatorlarda yerləşdirməyə iddialı olanların seçilməsi; seçim prosedurunun həyata keçirilməsi üçün komissiyanın yaradılması; hüquqi şəxs statusu əldə edən biznes-inkubatorların malik olduqları idarəetmə orqanları; biznes-inkubatorların bələdiyyələr üçün səmərəli profilinin müəyyən edilməsi və s. məsələlərin həlli öz əksini tapmışdır.

Işdə kiçik biznesə köməyin inistitusional modeli öz əksini tapmış və təhlil olunmuşdur.

Dissertasiya işinin “**Biznes-inkubatorların sahibkarlığın inkişafına köməyinin stimullaşdırılması yolları” adlanan üçüncü** fəslində Azərbaycanda biznes inkubatorların yaradılmasının konseptual əsasları, biznes-inkubatorların formalaşması, inkişaf problemləri və onların həlli yolları , biznes-inkubatorlar qarşısında duran məqsədlər, kiçik və orta müəssisələrin biznes-inkubatorlara qəbulu şərtləri, biznes inkubasıya prosesinin təşkilati metodiki mexanizminin təkmilləşdirilməsi yolları işlənib hazırlanmış, biznes inkubatorun strukturu və onun formalaş-

masına təsir edən amillər müəyyənləşdirilmişdir.

Azərbaycan Respublikasında biznes-inkubatorlar sisteminin formalaşmasının metodoloji təminatının işlənib hazırlanması istiqamətində təkliflər verilmişdir.Bununla əlaqədar olaraq 3 proqnoz variantı işlənmişdir.

Cədvəl 3

**2014 -cü ildə Azərbaycan Respublıkasının sosial-iqtisadi inkişafına biznes-inkubatorlar sisteminin təsiri**

| Sıra № | Göstəricilər | 2014-cu ilin sonuna | | |
|---|---|---|---|---|
| | | Variant I | Variant II | Variant III |
| 1 | Kiçik biznes müəssisələrinin say proqnozu | | | |
| | Biznes-inkubatorların proqnozlaşdırılan sayı | - | 10-12 | 20 |
| | Bİ-lər sistemi vasitəsilə kiçik biznes müəssisələrinin proqnozlaşdırılan sayı | - | 759 | 1380 |
| II | Kiçik biznesdə yeni iş yerlərinin yaradılması perspektivləri | | | |
| | Bİ nəzərə alınmaqla kiçik biznes müəssisələrində yeni iş yerlərinin yaradılması perspektivləri | 7494 | 28842 | 52440 |
| III | Bİznes inkubatorlar sisteminin ölkənin sosial –iqtisadi vəziyyətinə təsiri | | | |
| | ÜDM-in formalaşmasında 1 işçi yerinin payı, (manatla) | 993 | 993 | 993 |
| | Yaradılacaq bucaq yeni iş yerlərindən ÜDM artımı, mln manat | 7,44 | 9,43 | 11,42 |
| | Yaradılacaq yeni iş yerlərində ÜDM artımı, faizlə | 0,8 | 1,02 | 1,24 |

Qeyd: Cədvəl müəllif tərəfindən tərtib olunmuşdur.

Cədvəldə göstərilən rəqəmləri əsaslandırmaq üçün aşağıdakı düsturu tərtib edə bilərik: Ziy = Bi x Hk x İs (müəllif tərəfindən tərtib olunmuşdur)

Ziy- Bİ- ların təşkili nəticəsində açıla biləcək iş yerlərinin ümumi sayı;

Bi- Biznes inkubatorların proqnozlaşdırılan sayı;

Hk- Hər bir biznes inkubatorda hazırlana biləcək kiçik müəssisələrin sayı;

İş – Kiçik müəssisələrdə işləyəcək işçilərin sayı (orta hesabla)

III variantın əsaslandırılmasını həyata keçirək.

Ziy= 20x 69x38=52440 iş yeri

Cədvəldə verilmiş proqnozlar əsaslandırılarkən Azərbaycan Respublikası "İqtisadi fəaliyyət növləri üzrə kiçik sahibkarlıq subyektlərinin müəyyənləşdirilməsi meyarlarının hədləri" haqqında 2004-cü il 20 aprel tarixli 57 nömrəli qərarına (Nazirlər Kabinetinin 2009-cu il 18 dekabr tarixli 192 nömrəli qərarı ilə edilmiş dəyişikliklər nəzərə alınmaqla) əsasən kiçik müəssisədə işləyən subyektlərin orta sayı və ümumdünya təçrübəsində bir biznes inkubatorda hazırlanan kiçik müəssisələrin orta sayı əsas götürülmüşdür.

Tədqiqat nəticəsində Azərbaycan Respublikasında biznes-inkubasiya prosesinin modeli hazırlanmış və onun ölkənin sosial-iqtisadi inkişafına təsiri acıqlanmışdır. (sxem 2)




Sxem 2.Azərbaycan Respublikasında biznes-inkubasiya prosesi modeli və onun ölkənin sosial-iqtisadi inkişafına təsiri .

Qeyd: Sxem müəllif tərəfindən hazırlanmışdır.

İşdə Azərbaycanda inkubatorlar şəbəkəsinin yaradılmasında əsas məqsədlər, biznes-inkubatorlar şəbəkəsinin formalaşmasının ölkəmiz üçün xarakterik olan əsas prinsipləri və inkişaf istiqamətləri öz əksini tapmışdır. Bunlardan başqa biznes-inkubatorlar şəbəkəsinin inkişaf mərhələləri, onların davametmə müddəti və hər bir mərhələdə yerinə yetirilməli olan proseslər qeyd olunmuş ,nəzərdə tutulan maddi resurs mənbələri, biznes-inkubatorlar sisteminin reallaşdırılması müqabilində əldə olunacaq nəticələr göstərilmişdir . Ölkəmizdə biznes-inkubatorların formalaşması sahəsində mövcud problemlər (nəzəri-metodoloj problemlər, normativ-hüquqi problemlər, maliyyə problemləri, fünksional problemlər, kadr problemləri) və onların aradan qaldırlması istiqamətində təkliflər verilmişdir.

Azərbaycan Respublikasında innovasiya sahibkarlığına dair bütün yuxarıda qeyd edilən problemlərin həlli üçün sahibkarlığın innovasiya fəaliyyəti üzrə respublika əlaqələndirmə mərkəzini yaratmaqla innovasiya firmalarının monitorinqinin aparılması məqsədəuyğun sayılır. Qeyd olunur ki, biznes-inkubatorun miqyası, xidmətlər dəsti, istiqaməti , ilk növbədə, onların yaradıldığı ərazinin şəraiti ilə müəyyən olunmalıdır.

## Nəticə və təkliflər

- Ölkəmizdə biznes-inkubatorlar sisteminin reallaşdırılması müqabilində aşağıdakı nəticələrə nail olunması gözlənilir:
- müxtəlif tipli biznes-inkubatorlar yaratmaq və inkişaf etdirmək;
- onların bazasında 300-dən az olmayaraq kiçik biznes müəssisəsinə köməklik göstərmək;
- 4000-dən az olmayaraq yeni daimi iş yerlərinin yaradılması;
- biznes-inkubatorların fəaliyyət mexanizmi işlənib hazırlanmışdır
- işçi heyətinə rəhbərlik üçün təlimat işlənib hazırlanmışdır
- biznes-inkubatorlar üçün ekspert və mütəxəssislərin seçilib yerləşdirilməsi qaydaları müəyyənləşdirilmişdir
- biznes-inkubatorların fəaliyyətini nizama salmaq üçün sənədlərin işlənməsi və qəbulu proseduru hazırlanmışdır
- biznes-inkubatorlarin qurulmasının nəzəri-metodiki cəhətləri əsaslandırılmışdır,
- biznes-inkubatorların formalaşması problemlərinin (nəzəri-metodoloj problemlər, normativ-hüquqi problemlər, maliyyə problemləri, fünksional problemlər, kadr problemləri) aradan qaldırılması istiqamətin-

də təkliflər verilmişdir,

- bazar infrastrukturunun daha səmərəli elementi olan biznes-inkubatorlar sisteminin istər makro, istərsə də regional səviyyədə formalaşması üzrə təkliflər verilmişdir;
- biznes-inkubatorun formalaşması alqoritmi işlənib hazırlanmışdır,
- biznes-inkubatorun təşkilati-hüquqi formaları müəyyənləşdirilmişdir,
- müştərinin seçilməsi meyarları müəyyən edilmışdir,
- firmaların biznes-inkubatordan çıxması üçün meyarlar müəyyən edilmışdir,
- qarşılıqlı maraqlar balansına əsaslanan, müştəri fırmalar və inkubator direktorluğu arasında münasibətlərin tənzimlənməsi istiqamətləri müəyyənləşdirilmişdir ,
- biznes-inkubatorların regionlarda, o cümlədən bələdiyyələrin tərkibində təşkilinin əhəmiyyəti açıqlanmışdır,
- Azərbaycan Respublikasında biznes-inkubasiya prosesinin modeli hazırlanmış və onun ölkənin sosial-iqtisadi inkişafına təsiri müəyyənləşdirilmişdir,
- Kiçik biznesin infrastruktur elementlərinin bir mərkəzdə cəmlənməsi və işlək mexanizminin formalaşması sxemi təklif olunmuşdur.

**Dissertasiya işinin əsas məzmunu üzrə aşağıdakı elmi məqalələr dərc edilmişdir**


1. T.X.Hacıyeva.” Biznes inkubatorlar kicik biznesə köməyin mühüm aləti kimi “ AMEA-nın xəbərləri. İqtisadiyyat elmləri seriyası № 2 . 2009 səh136-141
2. T.X.Hacıyeva .”İnkişaf etmiş Bazar iqtisadiyyatlı ölkələrdə biznes inkubatorların işinin optimal təşkili təcrübəsi” Maliyyə və ücot jurnalı ,2009 № 10, səh 29-37
3. T.X.Hacıyeva.” Yerli özünüidarə sistemində biznes inkubatorların formalaşması xüsusiyyətləri” .Kooperasiya elmi-nəzəri jurnalı , № 3-4 , 2009, səh 79-85
4. T.X.Hacıyeva” Biznes-inkubasiya prosesinin təşkilati-metodiki mexanizmi” İqtisad elmləri: nəzəriyyə və praktika . Rüblük nəzəri və elmi praktiki jurnal , Az DİU.№1-2011, səh 235-239

5. T.X.Hacıyeva” Biznes-inkubatorların təşkilinin nəzəri-metodiki məsələləri” AMEA-nın xəbərləri. İqtisadiyyat elmləri seriyası № 3, 2009, səh 214-217

6. Гаджиева Т.Х Материалы научной конференции аспирантов и молодых ученых “Особенности формирования бизнес-инкубаторов в системе местного самоуправления” Поволжский кооперативный институт, 21 мая 2010, С.81-92

7. T.X.Hacıyeva “Azərbaycan Respublikasında biznes-inkubatorlar sisteminin formalaşmasının nəzəri- metodiki aspektləri” Gənc tədqiqatçıların Ümumrespublika konfransı Qafqaz Universiteti 06-07 may, 2010, səh 107-108

8. Гаджиева Т.Х « Концептуальные вопросы формирования бизнес-инкубаторов в Азербайджане». Журнал Економика та держава Украина , №12, 2011, с. 66-68

Телли Халаф кызы Гаджиева

**Проблемы формирования и развития бизнес-инкубаторов в Азербайджане**

**РЕЗЮМЕ**

Диссертационная работа состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во введении диссертационной работы обосновывается актуальность темы, изложен уровень изученности проблемы, цель, задачи, объект и предмет, методологические и теоретические основы, информационная база, научная новизна, практическая значимость и апробация исследования .

В первой главе под названием **«Теоретико-методологические аспекты формирования бизнес-инкубаторов»** изучены теоретико-методологические основы формирования бизнес-инкубаторов, организационные формы и классификация бизнес-инкубаторов, опыт в области создания и развития бизнес-инкубаторов в странах с рыночной экономикой и проведены необходимые обобщения.

В второй главе под названием **«Бизнес-инкубаторы как механизм организационного управления содействия предпринимательству»** с использованием различных методов анализа выявлены особенности государственного регулирования предпринимательства в Азербайджане, влияние бизнес-инкубаторов на создание благоприятной бизнес-среды, бизнес-инкубаторы, как инструмент помощи муниципалитетам.

В третьей главе диссертационной работы, под названием **«Пути стимулирования содействия бизнес-инкубаторов развитию предпринимательства»** разработаны концептуальные основы создания в Азербайджане бизнес-инкубаторов, программа формирования и развития системы бизнес-инкубатора и организационный механизм процесса бизнес-инкубации.

В заключении обобщены выводы сделанные впоследствии проведенных исследований и выдвинуты предложения.

*Telli Khalaf gizi Hajıyeva*

## The problems of forming and development of the business incubators in Azerbaijan

## SUMMARY

The thesis consists of an introduction, three chapters, conclusion and the list of used references.

The Introduction of the thesis substantiates the theme's urgency, expounds the level of study of the problem, research's aim, its duties, object and subject, methodological and theoretical bases, information base, scientific novelty and the practical importance and provides information regarding its approbation.

The first chapter of the thesis ("**the theoretical and methodological bases of business incubators**") deals with the theoretical and methodological bases of business incubators' forming process, their classification, the study which was consolidated as per the experiences gained in the field of forming and development of the business incubators in the countries with market-oriented economy, the numerous literatures which were studied and researched, and a conclusion arrived based on this study.

The research materials, thesis named as "**the business-incubators in the capacity of organizational-managerial mechanism of assistance to the entrepreneurship**" are based on the collection and consolidation of the long-term statistical, initial accounting and report documents. As a result of synthesis of these materials, using various materials to be analyzed, we made an effort to analyse and estimate the features of the entrepreneurship's state regulation process in Azerbaijan, influence of the business-incubators on forming the suitable business environment and recognizing the business-incubators.

The third chapter of the thesis ("**ways of stimulation of assistance rendered by the business-incubators to the development of the entrepreneurship"**) deals with the conceptual bases of the business-incubators in Azerbaijan , forming and development program of the business incubator's system and working out of the organizational-methodical mechanism of the business-incubation process. We have provided the institutional model of aid to the small business, as well as the structure and factors exerting influence over it in the regional type.

The conclusions arrived and proposals made as a result of researches are provided in the section of conclusion and proposals.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЭКОНОМИКИ**

*На правах рукописи*

**Телли Халаф кызы Гаджиева**

# ПРОБЛЕМЫ ФОРМИРОВАНИЯ И РАЗВИТИЯ БИЗНЕС-ИНКУБАТОРОВ В АЗЕРБАЙДЖАНЕ

Специальность: 5312.01- Отраслевая экономика

# А В Т О Р Е Ф Е Р А Т

Диссертации на соискание научной степени
доктора философии по экономике

**БАКУ-2013**